# RESTORANDA

Uzaq yerdən hörmətli bir qonağım gəlmişdi. Neçə illərdi görüşmürdük, həm də bu gün işlə bağlı yarım saatlıq ciddi söhbətiiz olmalı idi. Tərslikdən evimizdə də təmir aparılırdı. Məsləhətləşib restorana getdik. Xörəkpaylayan qadını çağırıb yemək, içmək  sifariş elədik.

Xeyli vaxtdı bir-birimizin üzünə baxıb danışa bilmirdik. Orkestr fasiləsiz çalırdı. Səsgücləndirici cihazlarla verilən qarmaqarışıq  musiqidən ağız deyəni qulaq eşitmirdi; gurultudan dər-divar titrəyirdi. Düşdüyümüz  şəraitdən rəncidə olan qonaq, tez-tez sir-səfətini turşudub, narazılıqla başını bulayırdı.

Musiqiçilərə məxsus balaca səhnədə yarımçılpaq müğənni qız uzun, zərli paltarının içində qıvrılaraq həm dabanlarını yerə döyüb çevikliklə oynayır, həm də qəribə - qəribə səslər çıxararaq, əcnəbi estrada mahnısı oxuyurdu... orkestrə pul göndərib sifariş verənlər də az deyildi. Musiqi susmaq bilmirdi. Biri qurtarınca başqasını çalırdılar.

Qonağın lap hövsələdən çıxdığını görüb, uzaqdan –uzağa xörəkpaylayan qadını çağırdım. Ona bir üçlük uzadıb qulağına qışqırdım:

- Apar bunu ötür orkestrin rəhbərinə. Deyinən beş dəqiqə çalmasınlar...

Qonağım elə bildi ki, mən də başqaları kimi musiqi sifariş verirəm.  Tez biləyimdən yapışıb yalvardı:

- Lazım deyil, canım! Tez çörəyimizi yeyək, çıxıb bayırda söhbətimizi eləyək. Mən axşam yola düşməliyəm...

Xörəkpaylayan qadın uzaqlaşdı. Lakin aradan azacıq keçmiş geri qayıdıb üçlüyü stolun üstünə qoydu.

- Nə oldu? – soruşdum

Qadın ağzını qulağıma söykədi:

- Orkestrin rəhbəri deyir, beş dəqiqə çalmamaq üçün üç manat azdır.